**Həsənova Ş.Ş.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.28-35**
**UOT 343.21**

# İnsan hüquqları üzrə Avropa Məhkəməsi qərarlarının milli cinayət hüququ üçün əhəmiyyəti

**Xülasə:** Məqalədə İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarına milli cinayət hüququnun mənbəyi kimi baxılmasına cəhd edilmişdir. Müəllif tərəfindən qeyd olunmuşdur ki, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarının şərhini nəzərdə tutan qərarlarının hüququn mənbəyi hesab olunması məsələsi məhkəmə presedentinin hüququn mənbəyi kimi qəbul edilməsi ilə bilavasitə bağlıdır. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının şərhini nəzərdə tutan İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının (presedent hüququnun) hüququn mənbəyi kimi qəbul edilməsinin əsas dəlili ondan ibarətdir ki, həmin qərarlar baxılan iş üzrə nəzərə alınan ümumi normaları, yaxud ümumi xarakterli müddəaları nəzərdə tutur. Həmin normalar milli məhkəmələr üçün istinad mənbəyi olaraq araşdırılan məsələnin bu və ya digər tərəflərini müəyyən edən hüdudları əks etdirir. İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarları cavabdeh-dövlət üçün məcburi hüquqi qüvvə kəsb etməsinə baxmayaraq, Azərbaycan Respublikasının həm Konstitusiya Məhkəməsi, həm Ali Məhkəməsi, həm də aşağı instansiya məhkəmələri təkcə Azərbaycana qarşı çıxarılan qərarların deyil, başqa dövlətlərə qarşı olan qərarların da presedent xarakterini tanıyır və həmin qərarlara istinad edirlər. Belə yanaşma onu təsdiq edir ki, Azərbaycan Respublikasının məhkəmələri "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının şərhini nəzərdə tutan qərarlardan irəli gələn təcrübə ilə həmrəydirlər. Əsas nəticə kimi belə bir tezis təqdim edilir ki, Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyində Avropa Məhkəməsinin presedentləri əsasında izah edilə biləcək milli cinayət hüquq normaları mövcuddur və həmin normaları müəyyən edərək, onların Avropa Məhkəməsinin presedentləri kontekstindən izah edilməsi həm müəyyən nəzəri, həm də böyük təcrübi əhəmiyyətə malikdir.

**Açar sözlər:** cinayət hüququ; insan haqları; Avropa Məhkəməsi; presedentlər; korrelyasiya; mənbələr; təhlil; qanunvericilik; təkmilləşmə.

İnsan hüquqlarının təmin edilməsinə yönəlmiş bütün digər beynəlxalq-hüquqi sənədlər arasında "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 4 noyabr 1950-ci il tarixli Avropa Konvensiyası (bundan sonra – Avropa Konvensiyası) özünəməxsus yer tutur və digərlərindən onunla fərqlənir ki, bu beynəlxalq-hüquqi sənədinin real təminat mexanizmi – xüsusi olaraq təsis edilmiş orqan, yəni İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) mövcuddur. Qeyd edilməlidir ki, 25 dekabr 2001-ci il tarixdə ""İnsan hüquqlarının və

♦ **Həsənova Şəlalə Şakir qızı -** hüquq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsinin aparıcı elmi işçisi (Azərbaycan). E-mail: shelale.hasanova@gmail.com

əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, bu Qanunla 1950-ci il noyabrın 4-də Roma şəhərində imzalanmış Avropa Konvensiyası və onun 1, 4, 6 və 7 saylı Protokolları müvafiq bəyanatlar və qeyd-şərtlər ilə təsdiq edilmişdir.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin "“Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 19 yanvar 2006-cı il tarixli Fərmanında Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və onu məhkəmə təcrübəsində nəzərə almaları tövsiyə olunmuşdur. Bundan başqa, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Kovensiya müddəalarının və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" 30 mart 2006-cı il tarixli, 5 № li Qərarında qeyd etmişdir ki, Azərbaycan Respublikası Avropa Konvensiyasının iştirakçısı və onu 2002-ci ilin aprel ayının 15-də ratifikasiya etmiş dövlət kimi Konvensiya və onun Protokollarının təfsiri və tətbiqi məsələləri üzrə Avropa Məhkəməsinin yurisdiksiyasının məcburiliyini tanıyır. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq, o cümlədən Avropa Məhkəməsinin həmin hüquqların təmininə yönəlmiş qərarlarının icrası qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsidir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı, Konvensiya müddəalarını da rəhbər tutmalı və bu zaman Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər.

Bunlarla yanaşı, milli hüquq ədəbiyyatında da qeyd edilir ki, Azərbaycan Respublikasının Avropa Konvensiyasını imzalaması və Avropa Şurasına daxil olmaqla Avropa Məhkəməsinin yurisdiksiyasını tanıması ilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Avropa Məhkəməsinin təcrübəsinin tətbiqi də aktual və vacib bir məsələyə çevrilmişdir. Avropa Konvensiyasına qoşulmamışdan öncə Azərbaycan Respublikasının Konstitusiyası ona uyğunlaşdırıldığı üçün insan və vətəndaşlara kifayət qədər geniş hüquqlar verən Konstitusiya demək olar ki, Konvensiyaya zidd heç bir müddəanı özündə əks etdirmir. Konstitusiya Məhkəməsi baxdığı işlərdə Konstitusiyaya əsaslandığı üçün onun qəbul etdiyi qərarların Konvensiya ilə hər hansı ziddiyyət təşkil etməsi də qeyri-real görünür. Ayrı-ayrı insan hüquqlarının mahiyyəti və ya tətbiqi ilə bağlı Avropa Məhkəməsinin müəyyən etdiyi hüquqi mövqelər ümumi qayda gözlənilməklə Konstitusiya Məhkəməsi tərəfindən də ciddi formada nəzərə alınır [1, s. 45].

Yuxarıda sadalanan faktlar və istinad edilmiş fikirlər ona dəlalət edir ki, müasir dövrdə Avropa Məhkəməsinin Konvensiyanın müddəalarının təfsirini nəzərdə tutan qərarlarına milli cinayət hüququnun mənbələrindən biri kimi baxılması kifayət qədər aktualdır.

Doktrinada haqlı olaraq qeyd edilir ki, Avropa Məhkəməsinin qərarlarından cinayət-hüquqi məsələlərin həllində istifadə edilməsi məhkəmə presedentinin cinayət hüququnun mənbəyi kimi qəbul edilməsinin məqsədəuyğun olub-olmaması haqqında müzakirələri də aktuallaşdırır. Elmi araşdırmalar ona dəlalət edir ki, söhbət Avropa Məhkəməsinin presdentlərindən gedərkən, məhkəmə presdenti cinayət hüququnun mənbəyi kimi qəbul edilməlidir, çünki bu presedentlər təcrübədə məhkəmələr tərəfindən baxılan işlər üzrə nəzərə alınmalı olan ümumi normaları və ümumi xarakterli müddəaları nəzərdə tutur, onlar ayrı-ayrı işlərin xüsusi hallarına, faktiki

tərəflərinə dair münasibəti ehtiva etmir. Həmin normalar milli məhkəmələr üçün istinad mənbəyi olaraq araşdırılan məsələnin bu və ya digər tərəflərini müəyyən edən çərçivələri əks etdirir [2, s. 84; 3, s. 111; 4, s. 117]. Avropa Məhkəməsinin presedentlərinin daha bir özəlliyi ondadır ki, onlar icra olunma baxımından cavabdeh-dövlət üçün məcburi hüquqi qüvvə kəsb etsə də, digər milli məhkəmələr təkcə onların mənsub olduqları dövlətlərə qarşı çıxarılan qərarların deyil, başqa dövlətlərə qarşı olan qərarların da presedent xarakterini tanıyır və öz təcrübələrində digər dövlətlərə qarşı işlər üzrə də qəbul edilmiş presedentlərdə Konvensiyanın hüquq üçün, o cümlədən cinayət hüququ üçün əhəmiyyət kəsb edən təfsirinə geniş şəkildə istinad edirlər.

Milli cinayət hüququnun tətbiqi təcrübəsi üçün Avropa Məhkəməsinin qərarlarının əhəmiyyəti aşağıdakı amillərlə izah edilə bilər. Hər şeydən əvvəl, nəzərə almaq lazımdır ki, Avropa Məhkəməsinin presedent hüququ milli cinayət qanunvericiliyin anlayış aparatını təşkil edən bir sıra termin və anlayışların rəsmi təfsirini nəzərdə tutur. Məsələn, Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin (bundan sonra – AR CM) 293-cü maddəsinə nəzər salsaq, onun məzmununda “qeyri-insani cəza”, “ləyaqəti alçaldan cəza” və bu kimi terminlərdən istifadə edilmişdir. Avropa Məhkəməsinin presedent hüququnda bu terminlərin zəngin təfsir təcrübəsi mövcuddur. Danılmazdır ki, bu təfsirlərdən xəbərdar olmaq milli cinayət hüququnun düzgün tətbiqi təcrübəsi üçün çox vacibdir. İkincisi, nəzərə almaq lazımdır ki, Avropa Məhkəməsinin qərarları Konstitusiya Məhkəməsinin təcrübəsi başda olmaqla, milli məhkəmələrin hüquq tətbiq etmə fəaliyyətində milli qanunvericilik normalarının beynəlxalq standartlara cavab verib-verməməsinin müəyyən edilməsində əsas meyar kimi çıxış edir.

Beləliklə, bu bir faktdır ki, Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyində Avropa Məhkəməsinin presedentləri əsasında izah edilə biləcək milli cinayət hüquq normaları mövcuddur və həmin normaları müəyyən edərək, onların Avropa Məhkəməsinin presedentləri kontekstindən izah edilməsi həm müəyyən nəzəri, həm də böyük təcrübi əhəmiyyətə malikdir. Onlara ayrılıqda baxaq.

Fikrimizcə, Avropa Məhkəməsinin presedent hüququ kontekstindən izah edilə biləcək əsas milli cinayət hüququ normalarına, ilk növbədə, AR CM-in “Cinayət qanununun zamana görə qüvvəsi” adlanan 10-cu maddəsinin bəzi müddəaları aid edilə bilər. Belə ki, həmin maddənin tələblərinə əsasən, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmələ görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz (AR CM-in 10.1-ci maddəsi). Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılmasını və həmin əmələ görə cəza müəyyən edən, cəzanı ağırlaşdıran, yaxud cinayət törətmiş şəxsin vəziyyətini başqa cür ağırlaşdıran cinayət qanununun geriyə qüvvəsi yoxdur (AR CM-in 10.4-cü maddəsi). Cinayət hüququnun nəzəriyyəsində bu müddəalar *Nullum crimen sine lege* prinsipinin tərkib elementləri kimi nəzərdən keçirilir. Bu prinsip digər beynəlxalq-hüquqi sənədlərlə yanaşı, Avropa Konvensiyasının 7-ci maddəsində də təsbit edilmişdir. Avropa Konvensiyasının “Qanunsuz cəzalandırılmamaq hüququ” adlanan 7-ci maddəsinə əsasən, heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayılmayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməz. Habelə, cinayət əməlinin törədildiyi zaman tətbiq olunandan daha ağır cəza verilə bilməz.

Göründüyü kimi, Avropa Konvensiyasının 7-ci maddəsi ilə AR CM-in 10-cu maddəsinin yuxarıda qeyd edilən bir sıra müddəaları eyni bir *Nullum crimen sine lege* prinsipinin hüquqi formuluna əsaslanır. Bu isə, o deməkdir ki, biz Avropa Konvensiyasının 7-ci maddəsinin təfsirindən

xəbərdar olsaq, faktiki olaraq, AR CM-in də 10-cu maddəsinin aidiyyəti üzrə bir sıra müddəalarını Avropa Məhkəməsinin presedent hüququ prizmasından şərh edə bilərik.

Avropa Konvensiyasının 7-ci maddəsinin müvafiq müddəalarının izahı Avropa Məhkəməsinin *Cokkinacis v. Greece* işi üzrə 25 may 1993-cü il, *Welch v. United Kingdom* işi üzrə 9 fevral 1995-ci il, *G. v. France* işi üzrə 22 sentyabr 1995-ci il, *S. V. v. United Kingdom* işi üzrə 22 noyabr 1995-ci il tarixli və bir sıra digər qərarlarında verilmişdir [3, s. 109-100; 4, 117-118]. Avropa Məhkəməsinin yuxarıda sadalanan və bir sıra digər bu kimi presedentlərində verilmiş rəsmi təfsirə əsasən, Avropa Konvensiyasının 7-ci maddəsində təsbit edilmiş təminatlar hüququn prinsipinin elementi kimi nəzərdən keçirilməlidir. Bu təminatlardan nə müharibə dövründə, nə də fövqəladə hallarda imtina etmək yolverilməzdir. Konvensiyanın 7-ci maddəsi cinayət qanununun təkcə geriyə qüvvəsi məsələlərini deyil, eləcə də onun cinayət təqibinə məruz qalan şəxsin ziyanına genişləndirici təfsirini, o cümlədən cinayət qanununun analogiya üzrə tətbiqinin qadağan edilməsini də nəzərdə tutur [6; 9]. Avropa Məhkəməsinin presedent hüququ da məhz belə bir prinsipə əsaslanır ki, əməl yalnız o, törədildiyi an cinayət hesab edilən qanun əsasında cəzalandırıla bilər. Məsələn, Avropa Məhkəməsi *Welch v. United Kingdom* işi üzrə 9 fevral 1995-ci il tarixli qərarında belə bir hüquqi mövqedən çıxış etmişdir ki, qüvvəyə minmiş qanun onun qüvvəyə minməsindən əvvəl törədilmiş əmələ görə cəza nəzərdə tutarsa, geriyə şamil edilə bilməz [11].

Bundan başqa, əvvəldə də göstərdiyimiz kimi, AR CM-in qüvvədə olan mətnində, daha dəqiq desək, 9.2-ci, 111.0.1-ci, 115.2-ci, 144-1.2.8-ci, 293-cü maddələrində "işgəncə", "qeyri-insani cəza", "qeyri-insani rəftar", eləcə də "ləyaqəti alçaldan cəza" və "ləyaqəti alçaldan rəftar" terminlərindən istifadə olunur. Bununla əlaqədar olaraq, milli cinayət hüququnun tətbiqi təcrübəsində bu terminlərin necə başa düşülməli olması, onların təfsir edilməsi və onlara dair elmi-təcrübi kommentariyanın verilməsi kimi məsələlər aktuallaşır.

Xarici və milli hüquq təcrübəsinin öyrənilməsi ona dəlalət edir ki, sadalanan terminlərin məhz Avropa Məhkəməsinin müvafiq presedentləri kontekstindən izah edilməsi hüquq tətbiqi təcrübəsi üçün daha səmərəli və doğru yanaşmadır [3, s. 110; 4, s. 120-121]. Avropa Məhkəməsinin bu sahədə mövcud olan zəngin təcrübəsindən *Ireland v. United Kingdom* işi üzrə 18 yanvar 1978-ci il, *Soering v. United Kingdom* işi üzrə 7 iyul 1989-cu il, *Varas and other v. Sweden* işi üzrə 20 mart 1991-ci il tarixli və bir sıra digər qərarların öyrənilməsi sadalanan terminlərin məhz Avropa Məhkəməsinin presedentləri kontekstindən izah edilməsi üçün dəyərli metodik zəmin yaradır. Belə ki, həmin presedentlərdə Avropa Məhkəməsi tərəfindən nümayiş etdirilmiş hüquqi mövqeyə əsasən, "işgəncə" və "qeyri-insani rəftar" anlayışları bir-birindən fərqlənən anlayışlardır və "işgəncə" "qeyri-insani rəftar"dan özünün daha ağır sərtlik dərəcəsinə görə fərqlənir. Məsələn, *Ireland v. United Kingdom* işi üzrə şübhəli şəxslər yuxudan, yeməkdən və sudan məhrum edilmiş, dindirmələrdə onların başlarına torba keçirilmişdi. Komissiya bu hərəkətləri işgəncə kimi dəyərləndirsə də, Avropa Məhkəməsi öz qərarında bu hərəkətləri qeyri-insani rəftar kimi qiymətləndirmişdi [7]. Presedent hüququnda cəzaya münasibətdə qeyri-insani cəza – güclü fiziki və ya mənəvi əzab verən cəzadır; ləyaqəti alçaldan cəza – qurbanı təhqir etmək, alçatmaq, fiziki və ya mənəvi müqavimətini qırmaq məqsədilə onda qorxu hissi, ruh düşgünlüyü yaratmağa, özünü öz gözündə dəyərdən salamağa yönələn pis rəftardan ibarət cəzadır [7]. Avropa Məhkəməsinin qərarlarında "qəddarlığın minimal dərəcəsi" meyarından da istifadə edilir və əgər cəza qəddarlığın minimal dərəcəsinə çatırsa, bu cəza Avropa Konvensiyasının 3-cü maddəsinin (İşgəncələrin qadağan olunması – Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır) təsiri altına düşən hesab edilir [10].

Avropa Məhkəməsinin təcrübəsində öz izahını tapmış cinayət-hüquqi xarakterli əsas məsələlərdən biri də ekstradisiya məsələsidir. AR CM-in 13.2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının hüdudlarından kənarda cinayət törətmiş və Azərbaycan Respublikasında olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər cinayət məsuliyyətinə cəlb edilməsi yaxud təyin edilmiş cəzanın icrası üçün “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətə verilə bilərlər.

Avropa Məhkəməsi də özünün *Ireland v. United Kingdom* işi üzrə18 yanvar 1978-ci il, *Soering v. United Kingdom* işi üzrə 7 iyul 1989-cu il, *Chahal v. United Kingdom* işi üzrə 15 noyabr 1996-cı il tarixli qərarlarında bildirilmiş ki, iştirakçı-dövlətlərin ədalət mühakiməsindən gizlənən cinayətkarı onun ittiham olunduğu cinayətin ağırlığından asılı olmayaraq, əvvəlcədən işgəncəyə məruz qalacağını bilərək, yaxud bunu ciddi əsaslarla ehtimal edərək digər dövlətə verməsi insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın əsas dəyərlərinə, xüsusilə də Preambulada bəhs olunan siyasi ənənələrin, idealların, azadlığın və hüququn aliliyinin ümumi irsinə uyğun olmazdı. Baxmayaraq ki, bu barədə Konvensiyanın 3-cü maddəsində birbaşa şəkildə fikir ifadə edilməmişdir, bu halda şəxsin ekstradisiya edilməsi həmin maddənin ruhu və aşkar mənası ilə ziddiyyət yaradar. Konvensiyanın 3-cü maddəsi qurbanın davranışından asılı olmayaraq işgəncə, qeyri-insani, ləyaqəti alçaldan rəftar və ya cəzanı qadağan edir [5; 7; 8]. Göründüyü kimi, AR CM-in 13.2-ci maddəsi Azərbaycan Respublikasının hüdudlarından kənarda cinayət törətmiş və Azərbaycan Respublikasında olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi yaxud təyin edilmiş cəzanın icrası üçün xarici dövlətə verilmə imkanını tənzim edirsə, Avropa Məhkəməsinin yuxarıda diqqət yetirdiyimiz hüquqi mövqeyi, faktiki olaraq, bu imkan üçün hüquqi xarakterli hədlər müəyyən edir. Başqa sözlə, AR CM-in 13.2-ci maddəsinin Avropa Konvensiyasından irəli gələn standartlara uyğun tətbiq edilə bilməsi üçün Avropa Məhkəməsinin yuxarıda diqqət yetirdiyimiz hüquqi mövqeyini bilmək vacibdir.

Beləliklə, bütün qeyd edilənlər bir daha İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında cinayət hüququ üçün əhəmiyyət kəsb edən hüquqi mövqelərin yer aldığını və bu qərarların da cinayət hüququnun mənbələri sistemində nəzərdən keçirilməli olduğunu təsdiq edir. Biz, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının presedent hüququnu ehtiva etdiyi və hüququn mənbəyi kimi qəbul edilməli olduğu qənaətindəyik və bununla əlaqədar olaraq, hesab edirik ki, AR CM-in təkmilləşdirilməsi üçün onun 1.2-ci maddəsinə aşağıdakı redaksiyada yeni ikinci cümlə əlavə edilməlidir: “Cinayət məsuliyyəti barədə məsələnin həlli və cəza təyini zamanı İnsan hüquqları üzrə Avropa Məhkəməsinin cinayət-hüquqi məsələlərlə bağlı hüquqi mövqelərini ehtiva edən qərarları nəzərə alınmalıdır”.

**Biblioqrafiya**

1. Abdullayev F.S. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri. - Bakı, 2013. - 664 s.

2. Бурмагин С.В. О влиянии решений Европейского Суда по правам человека на уголовное судопроизводство России // Российское правосудие, - 2016, № 3 (119). С. 83-95.

3. Волосюк П. Решения Европейского Суда по правам человека и уголовное право России // Уголовное право, - 2009, № 1. С. 109-112.

4. Денисова А. Постановления Европейского Суда по правам человека в системе источников российского уголовного права // Уголовное право, - 2014, № 1. С. 116-122.
5. European Court of Human Rights, Case of Chahal v. United Kingdom, 15.11.1996.
6. European Court of Human Rights, Case of Cokkinacis v. Greece, 25.05.1993.
7. European Court of Human Rights, Case of Ireland v. United Kingdom, 18.01.1978.
8. European Court of Human Rights, Case of Soering v. United Kingdom, 07.07.1989.
9. European Court of Human Rights, Case of S.V. v. United Kingdom, 22.11.1995.
10. European Court of Human Rights, Case of Varas and other v. Sweden, 20.03.1991.
11. European Court of Human Rights, Case of Welch v. United Kingdom, 09.02.1995.

**Hasanova Sh.Sh.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.28-35**
**UDC 343.21**

## The importance of decisions of European Court of Human Rights for National criminal law

**Abstract:** The article seeks to consider the proceedings of the European Court of Human Rights as a source of national criminal law. The author notes that the direct leadership of the European Court of Human Rights, which considers the interpretation of the provisions of the European Convention for the Protection of Human Rights and Fundamental Freedoms as a source of judicial precedent, The main argument of the decisions of the European Court of Human Rights (case law), which interpret the provisions of the Convention for the Protection of Human Rights and Fundamental Freedoms, as a source of law, is that these decisions assess the current general norms of the case. These norms reflect the boundaries that define one or another aspect of the issues under investigation as a source of reference for national courts. Despite the fact that the heads of the European Court of Human Rights have binding legal force on the respondent state, the Constitutional Court of the Republic of Azerbaijan, both the Supreme Court and the lower courts recognize and explain the precedent nature of relations not only with Azerbaijan but also with other states. This approach ensures that the courts of the Republic of Azerbaijan are in harmony with the practice arising from the rules of conduct in interpreting the provisions of the Convention for the Protection of Human Rights and Fundamental Freedoms. The main conclusion is that the criminal law in force in the Republic of Azerbaijan contains national norms of criminal law based on the precedents of the European Court, and the standard norms are defined and used in connection with certain theoretical and practical experience explaining the precedents of the European Court.

**Keywords:** criminal law; human rights; the European Court of Human Rights; precedents; correlation; sources; analysis, legislation; improvement.

♦ **Hasanova Shalale Shakir** – PhD in Law, Associate Professor, Leading Researcher of the Department for Criminal Law and Criminal Process of the Institute of Law and Human Rights of National Academy of Sciences of Azerbaijan. E-mail: shelale.hasanova@gmail.com

## References

1. Abdullayev F.S. *Azerbayjan Respublikasi Konstitusiya Mehkemesinin hugugi movgeleri* [Legal positions of the Constitutional Court of the Republic of Azerbaijan] Baku, 2013, 664 p.

2. Burmagin S.V. *O vliyanii resheniy Evropeyskogo Suda po pravam cheloveka na ugolovnoe sudoproizvodstvo Rossii* [On the Impact of the Decisions of the European Court of Human Rights on the Criminal Procedure of Russia]. *Rossiyskoe pravosudie - Russian Justice* 2016, No. 3 (119), p. 83-95.

3. Volosyuk P. *Resheniya Evropeyskogo Suda po pravam cheloveka i ugolovnoe pravo Rossii* [Decisions of the European Court of Human Rights and Criminal Law of Russia] *Ugolovnoe pravo - Criminal Law*. 2009, No. 1, p. 109-112.

4. Denisova A. *Postanovleniya Evropeyskogo Suda po pravam cheloveka v sisteme istochnikov rossiyskogo ugolovnogo prava* // [Decisions of the European Court of Human Rights and Criminal Law of Russia]. *Ugolovnoe pravo - Criminal Law*. 2014, No. 1, p. 116-122.

5. European Court of Human Rights, Case of Chahal v. United Kingdom, 15.11.1996.

6. European Court of Human Rights, Case of Cokkinacis v. Greece, 25.05.1993.

7. European Court of Human Rights, Case of Ireland v. United Kingdom, 18.01.1978.

8. European Court of Human Rights, Case of Soering v. United Kingdom, 07.07.1989.

9. European Court of Human Rights, Case of S.V. v. United Kingdom, 22.11.1995.

10. European Court of Human Rights, Case of Varas and other v. Sweden, 20.03.1991.

11. European Court of Human Rights, Case of Welch v. United Kingdom, 09.02.1995.


**Гасанова Ш.Ш.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.28-35**
**УДК 343.21**

# Значение решений Европейского Суда по правам человека для национального уголовного права

**Аннотация:** Предпринята попытка рассмотреть решения Европейского Суда по Правам Человека в качестве источника национального уголовного права. Автором отмечено, что вопрос о признании решений Европейского Суда по Правам Человека, содержащих в себе интерпретацию положений Европейской Конвенции по правам человека, в качестве источника права тесно связан с вопросом о возможности признания судебного прецедента в качестве источника права. Вместе с тем, основным аргументом того, что решения Европейского Суда, содержащие в себе толкование положений Европейской Конвенции «О защите прав человека и основных свобод» (прецедентное право), должны быть рассмотрены в качестве источника права является факт того, что эти решения отражают в себе вопросы общего характера и в них толкуются общие положения Конвенции. Эти положения, в свою очередь определяют пределы разных аспектов судебного разбирательства, осуществляемого в национальных судах. Несмотря на то, что решения Европейского Суда являются обязательными

♦ **Гасанова Шалаля Шакир кызы –** доктор философии права, доцент, ведущий научный сотрудник отдела «Уголовное право и уголовный процесс» Института права и прав человека Национальной Академии Наук Азербайджана. E-mail: shelale.hasanova@gmail.com

для исполнения в отношении государств-ответчиков, Конституционный Суд Азербайджана, Верховный Суд Азербайджана, а также суды нижнего звена судебной системы Азербайджана признают прецедентный характер всех решений Европейского Суда и ссылаются на них в своих постановлениях. Такой подход подтверждает тот факт, что суды Азербайджанской Республики солидарны в вопросах толкования Европейской Конвенции «О защите прав человека и основных свобод» с Европейским Судом. В качестве основного результата автор выдвигает тезис о том, что в действующем уголовном законодательстве Азербайджанской Республики существуют нормы, которые могут быть истолкованы исключительно с помощью прецедентного права Европейского Суда. Выявления таких норм и их толкование через призму прецедентного права Европейского Суда имеет своеобразное теоретическое и практическое значение.

**Ключевые слова:** уголовное право; права человека; Европейский Суд; прецеденты; корреляция; источники; анализ; законодательство; совершенствование.

## Библиография

1. Абдуллаев Ф.С. Правовые позиции Конституционного Суда Азербайджанской Республики. - Баку, 2013. - 664 с. (на азерб. яз.).
2. Бурмагин С.В. О влиянии решений Европейского Суда по правам человека на уголовное судопроизводство России // Российское правосудие. - 2016, № 3 (119). С. 83-95.
3. Волосюк П. Решения Европейского Суда по правам человека и уголовное право России // Уголовное право. - 2009, № 1. С. 109-112.
4. Денисова А. Постановления Европейского Суда по правам человека в системе источников российского уголовного права // Уголовное право. - 2014, № 1. С. 116-122.
5. European Court of Human Rights, Case of Chahal v. United Kingdom, 15.11.1996.
6. European Court of Human Rights, Case of Cokkinacis v. Greece, 25.05.1993.
7. European Court of Human Rights, Case of Ireland v. United Kingdom, 18.01.1978.
8. European Court of Human Rights, Case of Soering v. United Kingdom, 07.07.1989.
9. European Court of Human Rights, Case of S.V. v. United Kingdom, 22.11.1995.
10. European Court of Human Rights, Case of Varas and other v. Sweden, 20.03.1991.
11. European Court of Human Rights, Case of Welch v. United Kingdom, 09.02.1995.